## BİBLİOQRAFİK NƏŞRLƏR

# AZƏRBAYCAN FOLKLORU: BİBLİOQRAFİK GÖSTƏRİCİ

**Sima İSMAYILOVA**
*Bakı, BDU,*
kafedra_biblioqraf@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, folklor, Azərbaycan folkloru, folklor kitabı, biblioqrafik göstərici.*
***Ключевые слова:*** *Азербайджан, фольклор, Азербайджанский фольклоры, фольклорский книга, библиографические указатель.*
***Key words:*** *Azerbaijan, folklor, Azerbaijan folklore, a book folklere, biblioqraphic sources.*

Mövzu xarakterli biblioqrafik göstərici Azərbycan folkloruna həsr edilmiş ilk biblioqrafik mənbədir. Biblioqrafik göstəricinin müəllifi filologiya elməri doktoru Aybəniz Əliyeva-Kəngərli, İxtisas redaktoru Təranə Mirzəyevadır. Biblioqrafik göstəricini tərtib etməkdə məqsəd qədim dövrlərdən müasir günümüzədək mövcud Azərbaycan folklorunun bütün sahələrinə həsr olunmuş çap əsərlərini toplayaraq tələbatçılara çatdırmaq olmuşdur.

Vəsaitin əvvəlində ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun Prezidenti, Yunesko və İsesko-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimiz, tarixi, mədəni irsimiz haqqında qiymətli fikirləri əks olunmuşdur. Biblioqrafik göstərici Azərbaycan folklorunun janr təsnifatına uyğun olaraq tərtib olunmuş, görkəmli mütəxəssislərin elmi fəaliyyətinin biblioqrafik xronikası verilmişdir. Eyni zamanda "Azərbaycan folklorşünaslığı tarixi" və "Folklor araşdırmaları" bölməsində folklorşünaslığın tarixi və nəzəri problemləri ilə bağlı məlumatlar cəmləşmişdir. Azərbaycanda folklorun toplanması, nəşri və tədqiqi zərurətindən bəhs edən tarixi qərarları, müşavirə , konfrans və qurultay

materiallarını, "kitabi-Dədə Qorqud – 1300", Aşıq Ələsgər – 150, 175, 180 və s. yubiley tədbirlərini əks etdirən sənədli-xronikal informasiyalar da ayrıca bölmə daxilində əks etdirilmişdir.

Azərbaycan folklor mədəniyyətinin mühüm qolunu təşkil edən aşıq yaradıcılığına dair zəngin materiallar göstəricidə verilmişdir. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı aşıq, Aşıq Ələsgər, Molla Cüma kimi klassik ustadlarla yanaşı, nisbətən yaxın zamanlarda yaşayıb-yaratmış Aşıq Şəmşir, Hüseyn Cavan, Aşıq Şakir, Hüseyn Saraclı, Əkbər Cəfərov sənəti barədə də toplama-nəşr işlərinin, elmi-publisistik materialların biblioqrafik təsviri verilmişdir. Biblio-

qrafik göstəriciyə müəllif tərəfindən "Folklorşünaslığımızın elmi biblioqrafiyası" adlı oçerk Azərbaycan və ingilis dillərində verilmişdir.

Azərbaycan folkloru haqqında Azərbaycan Respublikası Prezidentinin qanun, fərman və sərəncamları ayrı-ayrı yarım bölmələrdə əks etdirilmişdir. Bu qanun və sərəncamlar respublikamız müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyev və respublika prezidenti İlham Əliyev tərəfindən qəbul edilmiş sərəncamlar, qanun və fərmanlar da folklor və folklorşünaslığın inkişafında mühüm hadisə olmuşdur. Qəbul edilmiş bu qanunlar içərisində "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının Qanunu" 16 may 2003-cü ildə Heydər Əliyev tərəfindən imzalanmışdır.

Digər bir Qanun isə 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmışdır. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu" imzalanmışdır.

Biblioqafik göstəricinin mühüm bölmələrindən bir də "Folklor nəşrləri" adlı bölmədir. Bu bölmə daxilində matetriallar əlifba qaydası ilə Azərbaycan , türk və rus dllərində. əvvəlcə kitablar, sonra qəzet, məcmuə, jurnal, kitab məqalələri başlığı altında sistemləşdirilmişdir. Bu bölmə daxilində Azərbaycan folklorunun ayrı-ayrı janr və növləri, Aşıq yaradıcılığı, Aşıq sənəti, Aşıqlar,

Azərbaycanın qadın aşıqları barədə, hər bir aşığın adının başlığı altında onun yaradıcılığına həsr edilmiş kitab, məqalə və jurnal məqalələri əlifba qaydası ilə sistemləşdirilmişdir. "Azərbaycan dastanları" başlığ altında əvvəlcə Azərbaycan dilində olan kitabların biblioqrafik təsvirindən sonra, jurnal və qəzet məqalələri əlifba qaydası ilə sistemləşdirilmişdir. Rus dilində olan materiallar da eyni qayda üzrə qruplaşdırılmışdır. Biblioqrafik göstəricidə Azərbayca dastanlarına həsr edilmiş materiallar içərisində "Kitabi-Dədə Qorqud" dastanına həsr edlmiş 648 mənbənin biblioqrafik təsviri verilmişdir. Bu mənbələrin əksəriyyəti "Kitabi-Dədə Qorqud" dastanının müxtəlif tədqiqatçılar tərəfindən tədqiq və təhlilinə həsr edilmiş monoqrafiyalar, tərcümə əsərləri, jurnal və qəzet materialları əlifba qaydası ilə əks etdirilmişdir. Dastanın yubileyləri ilə əlaqədar olaraq nəşr edilmiş kitablar, jurnal və qəzet mənbələri də eyni qayda ilə Azərbaycan və rus dillərində sistemləşdirilmişdir. "Kitabi-Dədə Qorqud" – 1300 başlığı altında olan bölmədə dastanla bağlı aparılmış araşdırmaları əks etdirən mənbələr, Respublika Prezidentinin fərman və sərəncamları, konfrans, sessiya və simpoziumların materialları haqqında mənbələr, yubileylə bağlı təşkil edilmiş komissiyaların materialların da biblioqrafik göstəriciyə daxil edilməsi vəsaitin informasiya bazasının zənginləşməsinə səbəb olmuşdur.

Azərbaycan folklorunun janrları üzrə ayrı-ayrı başlıqlar altında materialların verilməsi folklor ədəbiyyatımızın və folklorşünaslığın müasir dövrdəki inkişafını, bu sahədə aparılan tədqiqatların ildən-ilə daha məqsədyönlü aparılması ədəbiyyatşünaslıq biblioqrafiyasının biblioqrafik informasiya təminatında mühüm rol oynayan mənbələdəndir. Biblioqrafik göstəricinin informasiya potensialını artıran bölmələrdən biri də vəsaitdən istifadəni asanlaşdıran Azərbaycan, türk və rus



dillərində köməkçi aparatın verilməsidir. Biblioqrafik göstəriciyə "Müəlliflərin əlifba göstəricisi", "Müştərək müəlliflərin əlifba göstəricisi" və "Əsərlərin əlifba göstəricisi" kimi köməkçi göstərici tərtib edilmişdir. Ümumiyyətlə, biblioqrafik vəsaitin yüksək bədii tərtibatla nəşri,

vəsaitə zəngin məlumat-metodiki aparatın verilməsi onun dəyərini daha da artıran cəhətləridir.

Azərbaycan folkloruna və folklorşünaslıq mənbələri haqqında çox zəngin sənəd kütləsini əks etdirən bu biblioqrafik vəsait toplu şəkildə ilk dəfə tərtib edildiyinə görə müasir folklorşünaslığımızın biblioqrafik informasiya təminatında mühüm rol oynayacaqdır. Azərbaycan ədəbiyyatı tarixinin, xüsusilə zəngin şifahi xalq ədəbiyyatının tədqiqində və təbliğində mühüm vasitə olan bu biblioqrafik göstərici folklor ədəbiyyatını əks etdirən zəngin informasiya mənbəyidir.

**Ədəbiyyat**

Azərbaycan folkloru: biblioqrafik göstərici // tərtib edən: Aybəniz Əliyeva-Kəngərli.-B.,Proqress.-2011. 484s.

*Məqalə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının 15 aprel 2015-ci ili tarixli 8 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*
*Rəyçilər: dosent N.İ.İsmayılov, fəlsəfə doktoru X.T.Ağayeva*